# "İnklüziv təhsilin təşkili üzrə ölkəmizin ən böyük müzakirə platformasını yaratmışıq"

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev "Azərbaycan müəllimi"nə müsahibə verib




## "BSU 2030: Strateji İnkişaf Planı"nda həm öyrənmə, həm tədqiqat, həm də bütövlükdə universitetin inkişafı kontekstində bir çox məsələlər qarşıya hədəf olaraq qoyulub

### "Tədqiqata yanaşmamız tədrislə birbaşa bağlıdır"

– *Anar müəllim, BSU-nun gələcək inkişaf strategiyası nələri əhatə edir. Universitetin respublika və beynəlxalq təhsil məkanında mövqeyini gücləndirmək məqsədilə hansı institusional islahatlar, akademik yeniliklər və beynəlxalq əməkdaşlıq təşəbbüsləri planlaşdırılır?*

– 2030-cu ilə qədər "BSU 2030: Strateji İnkişaf Planı"nda həm öyrənmə, həm tədqiqat, həm də bütövlükdə universitetin inkişafı kontekstində bir çox məsələlər qarşıya hədəf olaraq qoyulub. Biz keyfiyyətli təhsilin təşkili baxımından kifayət qədər uğurlu addımlar atırıq. Universitetdə müxtəlif kafedralarda və fakültələrdə həyata keçirilən tədris prosesi müasir təhsil yanaşmaları və səriştə əsaslı təhsilin təşkili baxımından Azərbaycanın iqtisadiyyatı və cəmiyyətinin tələbləri, eləcə də əmək bazarının çağırışları kontekstində qurulmaqdadır.

Bakı Slavyan Universitetinin pedaqoji, sosial və filoloji sahələr üzrə qarşıya qoyduğu əsas hədəflərdən biri inklüziv təhsilin təşviqi, tətbiqi və universitetdə inklüziv təhsil mühitinin formalaşdırılmasıdır. Bu istiqamətdə universitetdə son dövrlərdə əhəmiyyətli nəticələr əldə olunub.

Digər mühüm hədəflərimizdən biri isə öyrənmə prosesinin idarə olunmasının, onun şəffaflığının və obyektivliyinin təmin edilməsi, ümumilikdə təhsilin səmərəliliyinin artırılmasıdır. Bu, həm təhsil alanlar, həm təhsil verənlər, həm də ümumi inzibati heyət üçün daha əlverişli və effektiv sistemin qurulmasını nəzərdə tutur. Bu məqsədlə "Rəqəmsal BSU" layihəsi həyata keçirilir. "Rəqəmsal BSU" universitetin təlim, tədris, tədqiqat və idarəetmə sahələrində bütün prosesləri rəqəmsal platformalar üzərindən idarə etməsini təmin edən müasir yanaşmadır.

Tədqiqata yanaşmamız isə tədrisə birbaşa bağlıdır. Bakı Slavyan Universiteti yarandığı ilk gündən etibarən slavyanşünaslıq sahəsində yalnız Azərbaycanda deyil, bütövlükdə regionda aparıcı ali təhsil müəssisələrindən biri kimi tanınır.

Qeyd etmək lazımdır ki, növbəti tədris ilindən başlayaraq BSU-nun bütün fakültələrində təlim, tədris və öyrənmə proseslərinin elektron resurslar vasitəsilə rəqəmsal əsasda idarə olunması nəzərdə tutulur.

Bu məqsədlə artıq bir neçə modul üzrə fəaliyyətimiz yekunlaşıb. Fakültələrimizin birində pilot layihə olaraq uğurla həyata keçirilib. Artıq sentyabra qədər digər fakültələrdə də pilot mərhələlərin keçirilməsi, sentyabrdan etibarən isə bütün fakültələrimizdə növbəti tədris ilindən başlayaraq qiymətləndirmənin elektron jurnallar əsasında aparılması və ümumilikdə təlim, tədris və öyrənmə proseslərinin elektron resurslar vasitəsilə rəqəmsal əsasda idarə olunması nəzərdə tutulur.

### "İstəyirik ki, kafedralar tədqiqat mərkəzlərinə çevrilsin"

– *Bakı Slavyan Universitetində təhsil və tədqiqat arasında əlaqə hansı səviyyədə qurulub?*

– Elm, elmi yaradıcılıq və tədqiqat təlim-tərbiyə proseslərindən kənarda dayana bilməz. Əksinə, bu proseslər bir-birini tamamlayaraq qarşılıqlı şəkildə inkişaf etməlidir. Bu baxımdan, ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar və dəstək layihələri xüsusilə diqqətəlayiqdir. BSU-nun daxilində də bu istiqamətdə bir sıra stimullaşdırıcı mexanizmlər mövcuddur. Məsələn, 2022-ci ildə biz universitetdə gənc tədqiqatçıların layihələrinin stimullaşdırılması məqsədilə xüsusi bir mexanizm yaratdıq.

Bakı Slavyan Universitetində tətbiq olunan bu stimullaşdırma mexanizminin əsas məqsədi gənc tədqiqatçıların apardıqları elmi işlərin beynəlxalq elmi platformalarda – xüsusilə də "Scopus", "Google Scholar" və digər nüfuzlu indekslərdə nəşr edilməsini təşviq etmək idi. Bu, bizim üçün ilkin bir təşəbbüs idi və düşünürəm ki, kifayət qədər uğurlu nəticələr verdi.

Aparılmış təhlillər və təcrübə bizə göstərdi ki, bu istiqamətdə işləri daha da genişləndirmək mümkündür və zəruridir. Məhz bu nəticələrə əsaslanaraq, artıq 2024-2025-ci tədris ili üçün universitetin Elmi Şurasının qərarı ilə yeni stimullaşdırma mexanizmləri tətbiq olunmağa başlanılıb. Artıq müəlliflərimizin beynəlxalq elmi bazalarda məqalələrinin nəşri daha sistemli və sürətli şəkildə baş verir.

Bizim əsas məqsədimiz yalnız məqalələrin çapı və ya onların beynəlxalq bazalarda yer alması deyil. Bu, sadəcə gedilən yolun bir mərhələsidir. Bizim baxışımız daha genişdir. Biz tədqiqat spektrinin genişləndirilməsini, tədqiqatların yalnız formalaşdırılması deyil, onların dərinləşdirilməsini və praktik nəticələrə yönəldilməsini əsas hədəf kimi görürük.

Dillərlə bağlı tədqiqatlardan tutmuş regional kontekstlərdə aparılan araşdırmalara qədər geniş bir sahəni əhatə edən elmi işlər mövcuddur. Bu işlərin universitet daxilində daha əlverişli və stimullaşdırıcı mühitdə aparılması olduqca vacibdir. Biz istəyirik ki, kafedralar yalnız dərs keçilən məkanlar olmasın, onlar həm də tədqiqat mərkəzlərinə çevrilsin, hər bir əməkdaş həm də tədqiqatçı kimi fəaliyyət göstərsin.

Əlbəttə ki, bizim tətbiq etdiyimiz stimullaşdırma mexanizmləri yalnız məqalələrin çapı ilə yekunlaşmır. Əsas məqsədimiz bu tədqiqatların nəticələrinin praktik tətbiqinə nail olmaq, onları cəmiyyət və təhsil mühiti üçün faydalı hala gətirməkdir. Məhz bu baxımdan stimullaşdırma mexanizmlərimizin əsas hədəfi daima daha geniş və nəticəyönümlü yanaşmanı təmin etməkdir.

Qeyd etmək istərdim ki, 2023-cü ildə BSU-da Yüksək Təhsil Mərkəzi yaradılıb. Bu mərkəz Azərbaycan Milli Kvalifikasiyalar Çərçivəsinin 7 və 8-ci səviyyələrinə – yəni magistratura və doktorantura səviyyələrinə uyğun olaraq fəaliyyət göstərir. Onun əsas funksiyası bu səviyyələrdə təhsilin və tədqiqat fəaliyyətinin təşkili, keyfiyyətinin artırılması və innovativ yanaşmaların tətbiqi istiqamətində görülən işləri əlaqələndirməkdir.

Yüksək Təhsil Mərkəzinin fəaliyyəti, əslində, hər birimizə tanış olan "RDI" – yəni "Tədqiqat, İnkişaf və İnnovasiya" konsepsiyası çərçivəsində həyata keçirilir. Biz bu yanaşma ilə ali təhsildə tədqiqat fəaliyyətinin təşkili və idarə olunmasına sistemli şəkildə yanaşmağa çalışırıq. Bu isə həm təhsilin keyfiyyətinə, həm də elmi nəticələrin effektivliyinə müsbət təsir göstərir.

Hazırda universitet daxilində bir neçə elmi laboratoriya fəaliyyət göstərir. Onlardan biri azərbaycanşünaslıq məsələlərinin tədqiqi ilə məşğuldur. Bu laboratoriya müasir dövrün aktual problemləri çərçivəsində Azərbaycanla bağlı araşdırmalar aparır.

Digər bir laboratoriyamız isə tərcümə və lüğətçilik sahəsinə həsr olunub. Burada müasir leksikoqrafik yanaşmalar tətbiq olunmaqla tərcümə fəaliyyətinin elmi əsasları üzərində işlər görülür.

Ən son yaradılan laboratoriyamız isə Qərbi Azərbaycan Elmi Tədqiqatlar Mərkəzidir. Bu laboratoriyanın əsas fəaliyyəti elmi resursların toplanması, tədqiqatların aparılması, dərslərin təşkili, konfransların keçirilməsi və digər elmi tədbirlərin planlaşdırılmasıdır.

Hazırda inklüziv dərslərin təşkili ilə bağlı ayrıca bir elmi-tədqiqat mərkəzinin və ya laboratoriyanın, yaxud daha geniş formada bir kafedranın yaradılması da müzakirə olunur.

### "Təhsil proqramlarımız yenilənmə mərhələsindədir"

– *Yeni ixtisasların tədrisi üçün pedaqoji kadrların hazırlanması və müvafiq proqramların təkmilləşdirilməsi üçün hansı tədbirlər həyata keçirilir?*

– Təhsil proqramlarının yenilənməsi istiqamətində biz inklüziv təhsillə bağlı təşəbbüsləri də irəli sürmüşük. Son üç il ərzində Bakı Slavyan Universitetində həm bakalavriat, həm də magistratura səviyyəsində bir sıra yeni ixtisaslar üzrə qəbul həyata keçirilir.

Bakalavriat səviyyəsində "Psixologiya", "Korreksiyaedici təlim", "Filologiya (türk dili və ədəbiyyatı)", "Politologiya" və "Tarix müəllimliyi" ixtisasları açılıb. Magistratura səviyyəsində isə "Tərcümə (fransız dili)", "Türk dili və filologiyası" ixtisasları yaradılıb. Bu ixtisaslar üzrə tədris prosesi uğurla təşkil olunur və kifayət qədər yüksək nəticələr əldə edilir.

Əlavə təhsil, yəni ikinci ali təhsil istiqamətində bizə edilən müraciətlərin böyük əksəriyyəti "Psixologiya", "Beynəlxalq münasibətlər", "Filologiya" kimi ixtisaslara yönəlib. Bu ixtisaslara həm klassik təhsil formasında, həm də əlavə təhsil kontekstində cəmiyyət tərəfindən kifayət qədər böyük maraq göstərilir. Hazırda isə bizim təhsil proqramlarımız yenilənmə mərhələsindədir.

### “"Qərbi Azərbaycana qayıdış" konsepsiyası Bakı Slavyan Universitetində tədris olunan bütün slavyan dillərinə tərcümə edilib"

– *"Qərbi Azərbaycana qayıdış" konsepsiyasının BSU-nun təhsil strategiyalarına inteqrasiyası hansı əsas istiqamətləri əhatə edəcək? Bu istiqamətdə BSU-da yeni açılan Qərbi Azərbaycan Tədqiqatları Mərkəzinin və universitetin professor-müəllim heyətinin rolu nədən ibarət olacaq?*

– Bizim elmi mühitdə Qərbi Azərbaycan tarixi və Qərbi Azərbaycan mədəniyyəti istiqamətində tədqiqatların stimullaşdırılması üçün yeni bir mexanizm formalaşıb. Artıq həmkarlarımız seçmə fənlər hazırlayıb, dərsliklər üzərində çalışır, bu istiqamətdə elmi məqalələr yazırlar. Bu prosesin nəticəsi olaraq universitetimizin Türkologiya, Pedoqogika və Psixologiya kafedralarında ilk təşəbbüslər həyata keçirilib. Müəlliflərin monoqrafiyaları hazırlanıb və bu monoqrafiyalar sözügedən stimullaşdırıcı mexanizmin tərkib hissəsinə çevrilib.

Bakı Slavyan Universitetində 2024-cü ilin sentyabr ayında Qərbi Azərbaycan İcması ilə yaxından işləməyi planlaşdıran Qərbi Azərbaycan Elmi-Tədqiqat Mərkəzi yaradılıb. Mərkəzin metodoloji bazasının formalaşmasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin müvafiq mərkəzinin mühüm rolu olub. Universitetimizdə mövcud olan dillər üzərindən metodoloji formatımızı formalaşdırmağa çalışırıq.

2025-ci il fevralın 13-də Bakı Slavyan Universitetində "Qərbi Azərbaycan tədqiqatlarda" mövzusunda böyük bir konfrans keçirildi. Konfransın əsas məqsədi Qərbi Azərbaycanla bağlı aparılan tədqiqatların istiqamətini müəyyənləşdirmək, bu sahədəki tələbatları və gələcək perspektivləri müzakirə etmək idi.

Konfrans çərçivəsində bir çox mühüm məsələlər müzakirə olundu. Qərbi Azərbaycanla bağlı tədqiqatların slavyan dillərində tərcümə edilməsi və bu sahədə beynəlxalq əməkdaşlıq imkanları da diqqət mərkəzində oldu.

Sevindirici haldır ki, həmkarlarımız artıq "Qərbi Azərbaycana qayıdış" konsepsiyasını universitetimizdə tədris olunan bütün slavyan dillərinə tərcümə ediblər. Hazırda bir sıra vəsaitlər də hazırlanır və nəşr prosesindədir. Türkologiya kafedrasındakı həmkarlarımız Qərbi Azərbaycan mövzusunda monoqrafiyalar yazıblar.

### "Əcnəbi tələbələrlə bağlı fəaliyyət sahəmiz genişlənir"

– *Xarici tələbələrin cəlb edilməsindən danışsaq, bununla bağlı məlumatları bölüşə bilərsiniz? Neçə xarici tələbəniz var və əsasən hansı ixtisaslarda təhsil alırlar?*

– Bakı Slavyan Universitetində 154 əcnəbi tələbə təhsil alır, onlar əsasən "Rus dili və ədəbiyyatı", "Rus dili və ədəbiyyatı müəllimi", "İngilis dili və ədəbiyyatı", "Beynəlxalq münasibətlər", "İbtidai sinif müəllimliyi", "Xarici dil müəllimliyi" (İngilis dili) ixtisaslarında təhsil alırlar.

Qeyd edim ki, Bakı Slavyan Universiteti 2023-cü ildə elm və təhsil nazirinin əmri ilə "Əcnəbi tələbələrlə işin təşkili" sahəsində fərqlənən 5 ali təhsil müəssisəsindən biri adına layiq görülüb. Əcnəbi tələbələrlə bağlı fəaliyyət sahəmiz kifayət qədər genişlənməkdədir. Bu, yalnız ənənəvi olaraq bizə müraciət edən slavyan ölkələrinin və ya qonşu dövlətlər – Gürcüstan və Türkiyənin tələbələri ilə məhdudlaşmır. Artıq bizim coğrafi arealımız Cənubi Koreyaya qədər genişlənib. Son illərdə biz Çin və İsveçrədən də tələbələr qəbul etmişik. Bu proses bir neçə istiqamət üzrə formalaşır. Birinci istiqamət əcnəbi tələbələrin birbaşa olaraq Bakı Slavyan Universitetinin müxtəlif təhsil proqramlarına və hazırlıq qruplarına müraciətləri əsasında qəbul olunmasıdır. İkinci istiqamət isə tərəfdaş universitetlərlə qarşılıqlı əməkdaşlıq müqavilələri çərçivəsində mübadilə proqramları əsasında həyata keçirilir.

### Universitetimiz inklüziv təhsil sahəsindəki təlim mərkəzlərindən birinə çevrilir

– *Universitetdə inklüziv təhsilin təşkili ilə bağlı hansı işlər görülür?*

– Bakı Slavyan Universitetinin təşəbbüsü ilə inklüziv təhsilin təşkili üzrə ölkəmizin ən böyük müzakirə platformasını yaratmağa nail olmuşuq. 2022-ci ildən başlayaraq "İnklüziv təhsildən inklüziv cəmiyyətə" adlı layihəyə start vermişik. Həmin il Beynəlxalq Autizm Aylığı çərçivəsində Bakı Slavyan Universitetinin təşəbbüsü ilə ölkə səviyyəsində böyük rezonans doğuran konfrans təşkil etdik. Bu uğurlu addımdan sonra biz təşəbbüsü layihə formatında davam etdirdik.

Elm və Təhsil Nazirliyinin dəstəyi ilə 2023-cü ildə layihə çərçivəsində 4 regionda – Astara, Biləsuvar, Şamaxı və Şəmkirdə regional təhsil idarələri ilə birgə görüşlər keçirdik. Təxminən 400 müəllim, psixoloq, məktəb direktoru və regional təhsil idarələrinin rəhbərləri də bu tədbirlərdə fəal iştirak etdilər.

Layihənin əsas məqsədlərindən biri, orta məktəblərdə çalışan müəllimlərimizin inklüziv təhsillə bağlı ehtiyaclarını müəyyənləşdirmək, bu mövzuda onlarla müzakirələr aparmaq və onlara əlavə bilik və bacarıqlar qazandırmaqdan ibarət idi. Bu məqsədlə 2023-cü ildə təşkil etdiyimiz regional görüşlərdə təxminən 300 müəllimin iştirakı ilə sorğular keçirdik. Bu sorğular bizə ehtiyacların daha dəqiq şəkildə müəyyənləşdirilməsinə kömək etdi. Məhz həmin nəticələrə əsaslanaraq, 2024-cü ildə keçirdiyimiz "İnklüziv təhsildən inklüziv cəmiyyətə" adlı ikinci konfransda mövcud ehtiyacları daha dərindən müzakirə etmək imkanımız yarandı.

Artıq bu mərhələdən başlayaraq konfransımız beynəlxalq status aldı. Polşadan və digər ölkələrdən həmkarlarımız – mütəxəssislər Azərbaycana gələrək bu mövzu ətrafında bizimlə birgə fəaliyyət göstərdilər. Eyni zamanda 2024-cü ildə müəllim və tələbələrimizi Polşaya və Rusiyaya ezam etdik. Bu səfərlər çərçivəsində onlar inklüziv təhsillə bağlı müxtəlif təcrübələrlə tanış oldular və ölkəmizə yeni biliklər, metodik yanaşmalar gətirdilər.

Bu il də aprelin 10-da "İnklüziv təhsildən inklüziv cəmiyyətə" adlı üçüncü konfransımızı təşkil etdik. Əlamətdar məqamlardan biri odur ki, bu konfrans artıq beynəlxalq miqyasda böyük maraq doğurur. Budəfəki konfransda Özbəkistan, Polşa, Finlandiya və İtaliyadan olan təhsil üzrə ekspertlər iştirak ediblər. Bu da layihənin həm elmi, həm də praktiki əhəmiyyətini bir daha sübut edir.

İnklüziv təhsil sahəsindəki yanaşmamızın əsas məqsədi, təhsil proqramlarımızı və tədris proseslərini nə qədər inklüziv hala gətirə biləcəyimizə dair konkret addımlar atmaqdır. Bu yanaşmanı artıq təhsil proqramlarımızda həyata keçirmişik. Hər bir təhsil proqramında inklüziv təhsilin əsas prinsiplərinə uyğun olaraq fəaliyyət göstərilir və bu prinsiplər tələbələrin fərdi ehtiyaclarına uyğun şəkildə təşkil edilir.

İnklüziv təhsil sahəsindəki fəaliyyətimiz, xüsusən də "İbtidai sinif müəllimliyi" ixtisasında daha da gücləndirilib. Bir neçə ildir sistemli şəkildə tətbiq etdiyimiz təcrübələrə əsaslanaraq, biz inklüziv təhsil tələbələrinə uyğun şəkildə bütün tədris prosesini formalaşdırmışıq. Tədris nəticələrində inklüziv təhsil prinsiplərinin tətbiqi və tələbələrin bu prinsiplərə uyğun olaraq qiymətləndirilməsi çox vacibdir. Hər bir dərs və proqram, adaptiv təhsil yanaşmasını özündə ehtiva edir.

Bütün bu addımlar, bizə təhsil prosesinə daha inklüziv yanaşmanın necə tətbiq olunduğunu və bunun nə qədər təsirli olduğunu göstərir. Bu təsirləri daha da genişləndirmək məqsədilə, biz əldə etdiyimiz nəticələri və konfranslarda əldə olunan bilikləri tədris prosesinə daxil etməyi planlaşdırırıq. Bu, inklüziv təhsil sahəsindəki inkişafı davamlı etmək və təhsil sisteminin daha geniş bir təbəqəsinə yayımaq məqsədini güdür.

Universitetimiz inklüziv təhsil sahəsindəki təlim mərkəzlərindən birinə çevirir.

### "Bakı Slavyan Universiteti regionun aparıcı sertifikatlaşdırma və testləşdirmə mərkəzinə çevrilməyi hədəfləyir"

– *Universitetdə dillərin tədrisi ilə yanaşı, sertifikatlaşdırma istiqamətində hansısa təşəbbüslər var?*

– Universitetimizdə müxtəlif dillərin daha dərindən öyrənilməsi üçün Dil və Mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlər həm də universitetin beynəlmiləlləşməsi və mədəni mübadilə baxımından mühüm rol oynayır. Hazırda biz bu mərkəzlərin fəaliyyətində yeni bir mərhələyə keçid prosesindəyik. Bakı Slavyan Universiteti özünün Strateji İnkişaf Planında göstərdiyi kimi, 2030-cu ilə qədər tədris etdiyi dillər üzrə deyil, xüsusilə də slavyan dilləri üzrə regionun aparıcı sertifikatlaşdırma və testləşdirmə mərkəzinə çevrilməyi hədəfləyir.

– *2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi fonunda Bakı Slavyan Universitetində konstitusiya hüququ və tələbələrin maarifləndirilməsi üzrə xüsusi tədbirlər və ya layihələrin həyata keçirilməsi planlaşdırılıb?*

– "Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçirdiyimiz əsas fəaliyyətlərdən biri gənclərin maarifləndirilməsinə yönəlmiş "Yeni dövrün Azərbaycanı" mövzusunda rektorun şagirdlərlə görüşləridir. Bu layihənin məqsədi gənclərimizin Konstitusiya və dövlətçilik tariximiz haqqında məlumatlandırılması, onların bu mövzuda müzakirələrə cəlb olunması və təşəbbüskarlığının təşviq edilməsidir.

Eyni zamanda biz bu fəaliyyətləri beynəlxalq müstəviyə daşımağı planlayırıq. Azərbaycanın xaricdə tanıdılması və xüsusilə xarici tələbələrə ölkəmiz haqqında dolğun məlumatların verilməsi istiqamətində də işlər planlaşdırılır.

Bildiyiniz kimi, Bakı Slavyan Universitetinin Avropada, xüsusilə də Şərqi Avropada – Slavyan və Balkan regionlarında çoxsaylı tərəfdaş universitetləri mövcuddur. Biz həmin tərəfdaşlıq imkanlarından istifadə edərək Azərbaycanın dövlətçilik tarixi, Konstitusiya inkişaf yolu və milli dəyərləri haqqında xarici tələbələrə təqdimatlar keçirməyi planlaşdırırıq.

Aprelin 8-də Albaniya Respublikasının Tirana Universitetində Azərbaycanın bu ölkədəki səfiri Anar Hüseynov ilə birlikdə 100-ə yaxın tələbə qarşısında "Yeni dövrün Azərbaycanı" mövzusunda təqdimatla çıxış etdim.

### "Bizim əsas hədəfimiz daha böyük və nüfuzlu beynəlxalq reytinqlərə daxil olmaqdır"

– *Universitetin beynəlxalq reytinqlərdə daha yüksək mövqelərə sahib olması üçün hansı addımlar atılıb?*

– Belə deyim, bu istiqamətdə fəaliyyətimiz var, çalışırıq. Hazırda biz hər hansı bir beynəlxalq reytinqdə, yəni qlobal səviyyədə nüfuzlu reytinq sistemlərində yer almamışıq. Söhbət "QS", "Times Higher Education" və digər nüfuzlu reytinq sistemlərindən gedir. Daha kiçik platformalarda hazırlanan reytinqlərdə isə biz mütəmadi olaraq yer alırıq. Hətta bu yaxınlarda onlardan birində də yer aldıq. Lakin bizim əsas hədəfimiz daha böyük və nüfuzlu beynəlxalq reytinqlərə daxil olmaqdır. Təbii ki, Bakı Slavyan Universitetinin profili daha spesifik və dar istiqamətlidir, bu da əhatəliliyin nisbətən məhdud olması baxımından bəzi çətinliklər yarada bilər. Bu, bəlkə də həmin reytinqlərdə yer almağa təsir göstərir. Amma universitet olaraq bu istiqamətdə davamlı fəaliyyət göstəririk. Hazırda "Times Higher Education"un "Reporter" kateqoriyasında yer alırıq. İnanıram ki, gələcəkdə Bakı Slavyan Universiteti bu böyük beynəlxalq reytinqlərdə də layiqli yer tutacaq.

**Yetər KƏRİMLİ.**